# Holland yazıçı Azərbaycanın haqlı mövqeyini dəstəklədiyini bəyan edib



Holland yazıçı-publisist, təhsil işçisi, Xocalı soyqırımı haqqında kitabın müəllifi Henri Van Rens bu ölkədəki Azərbaycan icmasının Haaqa Ədalət Sarayının önündə keçirdiyi dinc aksiyanı dəstəkləyib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, yazıçı Azərbaycan tərəfdarı olduğunu və bunu gizlətmədiyini qeyd edib. Azərbaycanın 30 il ərzində Ermənistan tərəfindən işğala və təcavüzə məruz qaldığını diqqətə çatdıran Henri Van Rens Niderlandın bəzi kütləvi informasiya vasitələrinin və jurnalistlərinin açıq-aşkar ermənipərəst mövqe tutmalarını, Azərbaycanla-Ermənistan sərhədində baş verənləri birtərəfli və qərəzli şəkildə işıqlandırmalarını tənqid edib.

Xocalı soyqırımı haqqında kitabında Qarabağ həqiqətlərini qələmə aldığını xatırladan yazıçı bildirib ki, azərbaycanlı dostları kimi o da Azərbaycan dövlətinin regionda sülhün bərqərar olması üçün göstərdiyi səylərinin müsbət nəticə verəcəyinə inanır.

Qeyd edək ki, Henri Van Rens dünyanı avtomobili ilə dolaşan yazıçı-publisist və səyyahdır. 2009-cu ildən etibarən hər il Azərbaycana səfər edir və ölkəmizin bütün bölgələrini qarış-qarış gəzir. 2020-ci ildəki parlaq zəfərimizdən sonra işğaldan azad edilmiş Ağdamı ziyarət edib və Ermənistanın işğal illərində Azərbaycanın qədim torpaqlarında törətdiyi vəhşiliklərin canlı şahidi olub.

Niderlandlı yazıçı cari il fevralın 26-da, Xocalı soyqırımının 31-ci ildönümündə Azərbaycan diasporunun Vyananın məşhur Heldenplatz meydanında "Xocalıya ədalət!" tələbi ilə keçirdiyi Ümumavropa Qarabağ mitinqində çıxış edərək dünya ictimaiyyətini Xocalı soyqırımını tanımağa çağırıb və bu qanlı qırğını törədən erməni canilərinin məsuliyyətə cəlb olunmasını tələb edib.

Azərbaycan. - 2023.- 6 sentyabr.- S.7.